**Gadimaliyev A.R.** ♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.64-77**
**UDC: 34. 342. 324.4; 342.5**

# The main and leading ontological features of constitutional reform

**Abstract:** The article discusses the main and leading ontological features of constitutional reform in modern times. The main purpose is the scientific and methodological assessment of modern constitutional reforms, the study of theories related to constitutional reform and the generalization of the results of scientific research related to their application in practice. There is also a study of amendments and additions to other normative legal acts, including constitutional law. As a result of the research, both local and foreign experience on the subject was studied, and attitudes to the existing problems in this field were expressed. The existing legal literature, normative legal framework were analyzed, a number of recommendations and suggestions were made.

**Keywords:** constitutional law; constitutional reforms; constitutional dynamics

## References

1. *Constitution of Azerbaijan Republic*. Baku, Qanun Publ., 2018, 43 p. (in Azerbaijani).
2. *Constitution of the United States of America* (1787). Baku, Qanun Publ., 2018, 24 p. (in Azerbaijani).
3. Asgerov Z.A. *Constitutional law*. Baku University Publ., 2011, 698 p. (in Azerbaijani).
4. *Constitution of Latvian Republic*. Available at: http://latvia.regnews.org/doc/lq/xf.htm. (accessed: 30.03.2020).
5. Nagiyev F.T. *Constitutional reforms in the independence years of Azerbaijan Republic.* Dovlet idareciliyi: nezeriyye ve tecrube jurnali, no. 4(56), Baku 2016, pp. 111-116 (in Azerbaijani).
6. Nagiyev F.T. Role of constitutional reforms in ensuring of human and citizen rights and freedoms. Baku, Mutercim Publ., 2016, pp. 136-141 (in Azerbaijani).
7. Constitution of Turkmenistan Republic. Available at: http://infoabad. com/zakonodatelstvo-turkmenistana/konstitucija-turkmenistana-novaja-redakcija.html (accessed: 30.03.2020).
8. Alebastrov I.A. *Konstitutsionnoe pravo zarubezhnykh stran*. Uchebnoe posobie [Constitutional law of foreign countries. Teaching aid]. Moscow, 2003, 192 p.
9. Agafonova N.V. Konstitutsiya kak ob’yek reformirovaniya [Constitution as an object of reforming]. *Universitetskie nauchnye zapiski – University Scientific Notes*, 2016, no. 3(59), pp. 5-11.
10. Butusova N.V. *O modernizatsii rossiyskoyi Konstitutsii (tseli, zadachi, puti osuschestvleniya)* [On modernization of Russian Constitution (goals, tasks, ways of fulfillment)]. *Konstitutisionnoe i munitsipal’noe pravo-Constitutional and municipal law*, 2013, no. 1, pp. 5-11.

♦ **Gadimaliyev Araz Raguf oglu –** PhD in Law, Associate Professor of the Department of Law of the Academy of Public Administration under the President of Azerbaijan Republic (Azerbaijan). E-mail: arazqadimaliyev@mail.ru

11. Butko L.V. *Konstitutsionnaya reforma: teoretiko-pravovyi analiz*. Dis…dokt.yurid. nauk [Constitutional reform: theoretical and legal analysis. Doc. of Law Diss.]. S. Petersburg, 1998, 426 p.

12. Voloshin Yu.A. *Konstitutsionnaya reforma i modernizatsiya v sovremennom gosudarstve v usloviyakh evropeyskoyi integratsii: problemy teorii i praktiki.* Monografiya [Constitutional reform and modernization in the modern state in course of European integration: problems of theory and practice. Monograph]. Odessa, Feniks Publ., 2013, 287 p.

13. Kireev V.V. *Teoreticheskie problemy reformirovaniya Konstitutsii Rossii*. Avtoref. dis… dokt yurid. nauk [Theoretical issues of reforming of the Russian Constitution. Thesis of Doctor of Law Diss.]. Chelyabinsk, 2010, 43 p.

14. Kolodiyi A.M. *Printsipy prava Ukrainy* [Principles of law of Ukraine]. Moscow, Inter Publ., 2018, 364 p.

15. Malyshev B.V. *Pravovaya reforma (teleologicheskoe izmerenie).* Monografiya [Legal reforming. Monograph]. Moscow, I.D. Dakor Publ., 2012, 364 p.

16. Medushevskyi A.N. *Sravnitel'noe konstitutsionnoe pravo i politicheskie instituty. Kurs lektsiyi* [Comparative constitutional law and political institutions. Course of Lectures]. Moscow, 2002, 734 p.

17. Melnik M. *Konstitutisya buduschego ili konstatatsiya proshlogo* [Constitution of future or ascertaining of the past]. *Zerkalo nedeli Ukrainy – Mirror of a week of Ukraine*, 2012, no. 3, pp. 6-11.

18. Orzikh M.F. *Sovremennyi konstitutsionalizm v Ukraine. Vvedenie v ukrainskoe konstitutsionnoe pravo* [Modern constitutionalism in Ukraine. Introduction in Ukrainian constitutional law]. Kiev, Alerta Publ., 2006, 290 p.

19. *Problemy teorii gosudarstva i prava.* Uchebnoe posobie [Problems of state and law. Teaching aid]. Moscow, Prospect Publ., 2009, 358 p.

20. Rumayntsev O.G. *Osnovy konstitutsionnogo stroya Rossii (ponyatie, soderzhanie, voprosy stanovleniya)* [Basis of constitutional formation of Russia (concept, content, issues of formation)]. Moscow, Yurist Publ., 2015, 288 p.

Qədiməliyev A.R. ♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.64-77**
**UOT: 34. 342. 324.4; 342.5**

## Konstitusiya islahatlarının əsas və ontoloji əlamətləri

**Xülasə:** Müasir dövrdə konstitusiya islahatlarının tədqiqində müasir metodologiyanın bəzi xüsusiyyətlərindən bəhs olunur. Əsas məqsəd müasir konstitusiya islahatlarının elmi-metodik dəyərləndirilməsi, konstitusiya islahatları ilə baglı nəzəriyyələrin araşdırılması və onların təcrübədə tətbiqi ilə əlaqədar elmi araşdırmaların nəticələrinin ümumiləşdirilməsindən ibarətdir. Burada həmçinin özündə konstitusiya hüquq normaları ehtiva edən digər normativ hüquqi aktlarına edilmiş əlavə və dəyişikliklərin tədqiqatı aparılmışdır. Tədqiqat nəticəsində mövzuya dair həm yerli, həm də xarici təcrübə öyrənilmiş, bu sahədə mövcud problemlərə münasibət bildirilmişdir. Mövcud hüquq ədəbiyyatı, normativ hüquqi baza təhlil edilmiş, bir sıra tövsiyə və təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** konstisiya hüququ; konstitusiya islahatları; konstitusiya dinamikası.

Elmi hüquqi ədəbiyyatda və dövlətlərin konstitusiya doktrinasında konstitusiya islahatının dərk edilməsi üzrə bir neçə konseptual yanaşma yaranmışdır. Bu qədər yanaşma dövlətdə konstitusiya dəyişikliklərin müxtəlif siyasi-hüquqi dəyərləndirilməsi, göstərilən problematikaya aid tədqiqatların müxtəlif metodoloji və ideoloji yanaşmaları ilə birbaşa əlaqəlidir. Konstitusiya islahatı təfsirinin variativliyi "islahat" termininin mənşəyinin, həmçinin fəlsəfədə, sosiologiyada və politologiyada onun təfsirinin qeyri-müəyyənliyi ilə şərtlənir. Tədqiqatçıların qeyd etdiyi kimi: “Anlayışda vurğulanan mühüm əlamətlər bir-birindən fərqlənir və ya yenidən qeyd edilmir, bu da cəmiyyətdə islahat təcrübəsi anlayışının qneseoloji qeyri-müəyyənliyinə aparır” [9, s.18].

Konstitusiya hüququ üzrə ədəbiyyatda konstitusiya islahatını birbaşa konstitusiyanın və ya onun əsas müddəalarının dəyişdirilməsi ilə əlaqələndirirlər. Bu, konstitusiya islahatının təzahürlərindən biridir. F.T. Nağıyevin fikrincə, konstitusiya islahatları dövlət-hüquq institutlarının bütün sisteminin ölkənin konstitusiya quruluşunun əsaslarının təsbit edilməsinə yönəlmiş keyfiyyətcə yenidən təşkil edilməsidir [6, s.137]. Konstitusiya islahatının məzmununu, konstitusiyanın bütün hüquq sistemi üçün prinsipial əhəmiyyətə malik olması baxımından, yalnız normativ-hüquqi akt kimi konstitusiyanın və ya onun ayrı-ayrı müddəalarının yenilənməsi ilə eyniləşdirmək olmaz.Tədqiqatçıların böyük əksəriyyəti diqqəti konstitusiya inkişafının və onun ayrı-ayrı istiqamətlərinin məzmununun siyasi və hüquqi aspektinə yetirirlər.

F.T. Nağıyev konstitusiya islahatlarının aktuallığını xarakterizə edən hallara aşağıdakıları aid edir:

- ölkənin qanunvericilik bazasının təkmilləşməsinin zəruriliyi;
- Azərbaycan Respublikasında konstitusiya islahatlarının fasiləsiz və daimi inkişafının spesifik modelinin hazırlanması;
- dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrinin hərtərəfli öyrənilməsi və onun Azərbaycan xüsusiyyətlərinə uyğun yaradıcılıqla tətbiqi;

♦ **Qədiməliyev Araz Raquf oğlu -** hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti, Azərbaycan. E-mail: arazqadimaliyev@mail.ru

- müasir dövlətin əsas qanunu kimi dövlətlə vətəndaş arasında qarşılıqlı ictimai münasibətləri tənzimləyən konstitusiya prinsiplərinə əsaslanmış qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyi [5, s.113].

Konstitusionalizmin normativ-hüquqi əsasını dövlətin və cəmiyyətin inkişafının demokratik prinsiplərini özündə əks etdirərək konstitusiya təşkil edir. Z.A.Əsgərov qeyd edir ki, hər bir ölkənin konstitusiyası həmin dövlətin və cəmiyyətin əsasını təşkil edən münasibətləri tənzimləyir. Bu münasibətlərin əsaslı şəkildə dəyişikliyə uğraması dövlətvə cəmiyyətin özünün ictimai-siyasi həyatında köklü dəyişikliklərin baş verməsidir [3, s. 556]. Bununla bərabər, siyasi rejimin həyata keçirilməsi demokratik, hüquqi dövlətin konstitusiya idealına uyğundur və mütləq müvafiq konstitusiya müddəalarının yerinə yetirilməsini tələb edir. Burada konstitusiya sabitliyinin təmin edilməsi və islah edilməsi zərurəti, qanunun və konstitusiyanın aliliyi, xalqın konstitusiya quruluşunu müəyyən etmək və dəyişdirmək hüququ, konstitusiya prosesinin qanuniliyi və legitimliyi ilə bağlı bir sıra problemlər ortaya çıxır. "Demokratik, hüquqi dövlətin konstitusiya idealı"-ın özü də sosial-demokratik və ya liberal, hətta avtoritar rejimin "pərdəsi" altında fərqli məzmuna malik ola bilər. Y.A.Voloşin konstitusiya islahatını dövlətin qüvvədə olan konstitusiyasının keyfiyyətcə dəyişdirilməsi və ya dövlətin yeni əsas qanununun qəbul edilməsi və onun əsasında dövlətin özünün və bütün dövlət qanunvericiliyinin tədricən yeniləşdirilməsi məqsədilə aparılan hüquqi, təşkilati və siyasi tədbirlər məcmusunu təşkil edən ən vacib dövlət-hüquq hadisəsi qismində araşdırır [12, s.7].

L.V.Butko da oxşar nöqteyi-nəzərdən çıxış edir [11, s.60]. Belə təriflərdə diqqət konstitusiya islahatının təşkilati komponentinəvə çoxtərəfli, çoxaspektli səmərəliliyinə yönəldilir. Şübhəsiz, konstitusiya islahatı mürəkkəb, çoxtərəfli, çoxaspektli və sistemli bir hal kimi, məqsədi konstitusiyanı və konstitusiya qanunvericiliyini yeniləmək yolu ilə dövlətin aktual problemlərini həll etmək olan bir tədbirlər kompleksi, məcmusudur. Eyni zamanda, əsas qanunun, bütün qanunvericiliyin və dövlətin özünün yenilənməsi cəmiyyətin maraqlarının təmin edilməsinə, cəmiyyətin və dövlətin inkişaf hədəfinə tabe olmalıdır.

V.V. Kireyev isə, diqqəti sosial-iqtisadi, təşkilati, hüquqi və mənəvi ilkin əsaslara cəlb edir, konstitusiya islahatını cari qanunvericiliyin və konstitusionalizmin onun məzmununa uyğun olaraq dəyişdirilməsinə aparan konstitusiyanı tam və ya qismən dəyişdirən siyasi-hüquqi bir proses kimi səciyyələndirir [13, s.9].

Hər bir siyasi-hüquqi proses özünün ilkin şərtlərinə, əsaslarına malikdir, onlarındərk edilməsi isə müvafiq prosesin inkişaf edilməsinin və onun həyata keçirilməsinin proqnozlaşdırılması şərtlərinin təhlili üçün vacib əhəmiyyət kəsb edir. Bununla yanaşı, konstitusiyaya edilən dəyişikliklər, bir qayda olaraq, mövcud cari qanunvericilikdədə müvafiq dəyişikliklərə səbəb olur. Lakin, bu yığcam tərif konstitusionalizmin nədən ibarət olduğu və ya bütün hallardamı konstitusiya islahatının konstitusionalizmin dəyişməsinə aparması haqqında məsələnin araşdırılmasını məcbur edir. Ümumiyyətlə, konstitusiya islahatları dünyanın müasir siyasi tarixində olduqca yayılmış bir haldır. Son yüzillikdə öz konstitusiyasını dəyişməmiş bir dövlətə rast gəlmək mümkün deyil.

Belə ki, elmi ədəbiyyatda bir sıra vacib məqamlara diqqət çəkilir. Məsələn, “1988-ci ildə qəbul edilən sayca yeddinci Braziliya konstitusiyası artıq 64 dəyişikliyə məruz qalmışdır. 30 dekabr 1999-cu ildə qüvvəyə minmiş Venesuela Konstitusiyası ölkənin sayca 26-cı konstitusiyası oldu. Gürcüstanın 1995-ci il Konstitusiyasına 19 dəfə dəyişiklik edilmişdir. 24 may 1949-cu ildə qüvvəyə minən AFR Konstitusiyasına 50-dən çox düzəlişlər edilmişdir. Onların arasında NATO-ya üzvolma (1956-cı il), müdafiə vəziyyəti (1968-ci il), Almaniyanın yenidən birləşməsinin nəticələri (1994-cü

il) və s. kimi düzəlişləri göstərmək olar. 1958-ci il Fransa Konstitusiyası 1962, 1992, 1993, 1996, 2000, 2008-ci illərdə qəbul olunmuş əlavələr və dəyişikliklərlə qüvvədədir. 1791-ci ildən 1946-cı ilə kimi davam edən dövrdə Fransada 13 konstitusiya qəbul edilmişdir. 1 may 1917-ci ildə qüvvəyə minən Meksika Konstitusiyası özünə görə yeganədir. Onun müddəalarına görə, o, "hər zaman üçün" qəbul edilmiş "əbədi" bir konstitusiyadır və hətta "inqilablar nəticəsində" ləğv edilə bilməz. Bununla belə, bu konstitusiyanın mövcud olduğu müddətdə ona 400-dən çox əlavə və dəyişikliklər edilmişdir" [16, s.120].

Mütləq monarxiyanın 1932-ci ildə konstitusiya monarxiyası ilə əvəz edilməsindən sonra Tailandda 19 konstitusiya dəyişmiş, onlardan sonuncusu isə 2016-cı ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuşdur.1949-cu il Konstitusiyasını əvəzləmiş 2011-ci ildə qəbul edilmiş Macarıstan Konstitusiyasına (01.01.2012 tarixində qüvvəyə minmişdir) artıq 2013-cü ildə bir sıra düzəlişlər edilmişdir. 2016-cı ilin sentyabrında Türkmənistan Konstitusiyasının yeni redaktəsi qüvvəyə mindi [4]. 12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyasına isə 24 avqust 2002-ci il, 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı illərdə əlavə və dəyişikliklər edilmişdir [1].

Beləliklə, biz görürük ki, konstitusiyaya dəyişikliklərinin edilməsi ictimai həyatda baş verən hadisələrin hüquqi təminatının zəruriliyi ilə əlaqəli olan ümumi bir dünya təcrübəsidir və cəmiyyətin dövlət təşkilatlanmasının inkişafında müəyyən bir mərhələni əks etdirir. Hüquq elminə və siyasi təcrübəyə konstitusiya aktlarına edilən düzəlişlərin müxtəlif üsulları, forma və modelləri məlumdur. Bu mənada ABŞ Konstitusiyasını bir fenomen hesab etmək olar. İki yüz ildən çox əvvəl qəbul edilmiş ABŞ Konstitusiyası (1787-ci il) bu gün də dövlət sabitliyi və gücünün nümunəsi sayıla bilər. ABŞ Konstitusiyası ona dəyişikliklərin edilməsi baxımından qəti hesab olunur. Ona düzəlişin edilməsi üçün Konqresin hər iki palata üzvlərinin üçdə ikisi səs verməlidir və ya belə düzəliş ştatların üçdə ikisinin təşəbbüsü ilə çağırılan xüsusi konvent tərəfindən qəbul edilməlidir. ABŞ Konstitusiyasına düzəlişlər ABŞ ştatlarının dörddə üçünün qanunvericilik iclasları tərəfindən və ya ABŞ Konqressinin qərarına əsasən çağırılan ABŞ ştatlarının dörddə üçünün konventləri tərəfindən ratifikasiya edilməlidir [2].

ABŞ Konstitusiyasına düzəlişlərin bu cür mexanizmi bir tərəfdən onu lazımi sabitliklə təmin etmiş (bütün mövcudluğu dövrü ərzində ABŞ konstitusiyasına düzəlişlər edilməsi məqsədilə 10 mindən çox təklif irəli sürülmüş, onlardan ABŞ Konqresi yalnız 40-nı qəbul etmiş, onlardan da cəmi 27-si ştatlar tərəfindən ratifikasiya edilmişdir), digər tərəfdən isə onun "canlı konstitusiya" kimi təfsirinə kömək etmişdir ki, bu da düzəlişlərin edilməsi üçün müxtəlif üsullara (Konqres aktları, konstitusiya adətlərivə ABŞ Ali Məhkəməsinin təcrübəsi ilə) "imkan yaradır". Dünyanın əksər ölkələrində istər keçmişdə, istərsə də indiki dövrümüzdə konstitusiyaya islahatları konstitusiyaya dəyişikliklərin edilməsi yolu ilə, o cümlədən konstitusiyanın yeni redaktəsinin və ya yeni konstitusiyanın qəbulu yolu ilə həyata keçirilir. Bununla yanaşı, hər bir ölkədə konstitusiyaya dəyişiklik etmək və ya yeni bir konstitusiya qəbul etmək qaydası özünəməxsus xüsusiyyətlərə malikdir və konstitusiyanın qəbul edilməsinin tarixi halları, idarəetmə formasının xüsusiyyətləri, ərazi quruluşunun forması, dövlət (siyasi) rejim və s. kimi müxtəlif amillərlə şərtlənir. Konstitusiya islahatlarının dünyada yayılması baxımından onlara cəmiyyətin inkişafehtiyacları ilə bağlı olanvə cəmiyyətin dövlət təşkilinin cari problemlərinin həlli zərurəti ilə şərtlənən obyektiv bir proses kimi baxmaq olar. Postsovet respublikalarının konstitusiyalarının preambulasında cəmiyyətin məqsədi demokratik, sosial, hüquqi bir dövlət qurmaq və möhkəmləndirmək istəyi prizmasından müəyyən edilmişdir. Çünki, insan hüquqları və azadlıqlarının təmin edilməsinin və sosial idealların əldə

edilməsinin qayğısına məhz bu cür dövlət təşkilatlanması qala bilər. Konstitusiya cəmiyyətin və dövlətin inkişafı üçün müvafiq proqramı əks etdirir və buna nail olmaq üçün vasitələr müəyyənləşdirir. Belə vasitələrin uyğunsuzluğu və ya səmərəsizliyi onların təkmilləşdirilməsi zərurətini şərtləndirir, konstitusiya islahatları məqsədlərinin ifadə olunması və konkret vəzifələrinin qoyulması yolu ilə müəyyənləşdirir.

A.N. Meduşevskinin konstitusiya dövrləri haqqında nəzəriyyəsi konstitusiya islahatını siyasi hakimiyyətin yeni bir legitim düsturun qəbul edilməsi vasitəsilə sosial dəyişikliklərin xarakterinə, təbiətinə uyğunlaşdırılmasının təmin edilməsi zərurəti ilə əlaqələndirir [18, s.496].

Sosial dəyişikliklərin təbiətinin, xüsusən qeyri-sabit cəmiyyətlərdə, obyektiv qiymətləndirilməsini və ya səlahiyyətli orqanlara seçkilərdə siyasi qüvvələrin dəyişməsi ilə şərtlənən konstitusiya dəyişiklikləri istəyini necə təmin etməli? Müxtəlif ölkələr öz dövlətçiliyin müxtəlif inkişafı mərhələlərində konstitusiya islahatlarının fərqli səbəblərinə malik idilər. Müvafiq olaraq, hər bir dövlətdə konstitusiya islahatı öz xüsusiyyətləri ilə səciyyələnir.

O.Q. Rumyantsev konstitusiya islahatlarının obyektiv səbəbləri arasında aşağıdakıları qeyd edir:

1) daxili siyasi səbəblər. Avtoritarizmdən keçid, idarəetmə formasının və ya siyasi rejimin dəyişdirilməsi quruluş əsaslarının və ayrı-ayrı dövlət-hüquq institutlarının islah olunması zərurətini yaradır. Azərbaycan üçün bu, 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının dəyişdirilməsinin və 1995-ci il yeni Konstitusiyasının qəbul edilməsinin əsas səbəbi idi;

2) ərazi quruluşunda dəyişikliklər. Bu cür səbəb regionalizmin inkişafı və ərazi vahidləri (Böyük Britaniya, İtaliya və s.) statusunun müəyyən edilməsi zərurəti ilə əlaqədar ayrı-ayrı Avropa ölkələrinin konstitusiya aktlarına dəyişikliklərin edilməsini şərtləndirdi;

3) cəmiyyətin "siyasi xəritəsi"-də əhəmiyyətli dəyişikliklər, konstitusiyaya yenidən baxılması yolu ilə özünün sosial-iqtisadi quruluşa dair təsəvvürlərini möhkəmləndirməyə çalışan müxalif qüvvənin hakimiyyətə gəlməsi. Bu səbəbin obyektiv dərk edilməsini mübahisəli hesab etmək olar. Ən azından hakimiyyətə gələn hər bir yeni siyasi qüvvənin konstitusiya islahatı aparmağa təşəbbüs göstərdiyi Ukraynanın konstitusiya inkişafı xüsusiyyətlərini nəzərə alaraq;

4) konstitusiya normalarının qismən yenidən baxılmasının təkamül səbəbi konstitusiyanın faktiki gücünün itirilməməsi istəyi ilə şərtlənən hüquq sisteminin islah olunması ola bilər;

5) xarici səbəblər bir çox hallarda ölkənin geosiyasi vəziyyətinin dəyişməsi, müstəqilliyin bəyan edilməsi və s. ilə diktə olunur [20, s.28].

Bu kimi səbəblər bəyan edilmiş islahatların konkret məqsədlərini, onların istiqamətini və səciyyəvi xüsusiyyətlərini şərtləndirir. Eyni zamanda, bütün konstitusiya islahatlarında bu fenomeni hərtərəfli göstərən ümumi əlamətlər və keyfiyyətlər də mövcuddur. Deməli, konstitusiya islahatı anlayışının tərifi bu fenomenin əlamətlərini müəyyən etmək zərurətini ortaya qoyur.

Ümumilikdə, konstitusiya islahatının əsas əlamətlərinə aşağıdakılar aid edilir:

- həyata keçirilmənin mərhələliyi;
- islahat prosesində həyata keçirilən konstitusiya dəyişikliklərinin sistemliyi;
- konstitusiyanın və konstitusiya qanunvericiliyinin tam və ya qismən dəyişdirilməsi;
- konstitusiya hüquq münasibətlərinin dinamikası;
- obyektiv-faydalı zərurət kimi hər şeydən əvvəl həyata keçirilən konstitusiya dəyişikliklərinin dərk edilməsinə yönəlmiş konstitusiya hüquq düşüncəsinin formalaşdırılması;
- konstitusiya hüquq qaydasının və konstitusiya qanunçuluğunun təmin edilməsi və qorunmasının funksional mexanizminin yaradılması;

- konstitusiya qanunvericiliyi və konstitusiya həqiqətlərinin müasir konstitusionalizm sisteminə inteqrasiyası.

Bu cür əlamətlər konstitusiya islahatını obyektiv və təkamül hadisəsi kimi səciyyələndirir. Onların cəmi konstitusiya-hüquq islahatlarını müasir siyasi sistemlərin fenomeni kimi səciyyələndirir.

Yuxarıda sadalanan əlamətlərin hamısında fəaliyyət göstərmə aspekti göz qabağındadır, yəni söhbət aparılmadan, formalaşdırmadan, yaradılmadan, həyata keçirilmədən gedəndə aydın olur ki, belə aktlar cəmiyyətin konstitusiya prinsiplərinin təşkili üzrə müəyyən subyektlərin şüurlu, iradəli və məqsədyönlü fəaliyyətinin təzahürüdür.

V.V.Lemakın düzgün qeyd etdiyi kimi, “Konstitusiya islahatı konstitusiyanın dəyişdirilməsi üçün hər hansı bir fəaliyyət demək deyil, o, yanlız əsas konstitusiya prinsiplərinin "açılması" mənasına gələn fəaliyyətdir”[15, s.46]. Konstitusiya islahatının həyata keçirilməsi mütləq onun məqsədinin dəqiq ifadə edilməsini nəzərdə tutur. Ümumi mənada konstitusiya islahatının məqsədi – konstitusiyanın islah olunmasının planlaşdırılan nəticəsidir. O, cəmiyyətin bəyan edilmiş, lakin konstitusiya-hüquqi mexanizmi ilə təmin olunmayan istək və dəyərlərini və ya konstitusiya layihəsində təkrar edilmiş yeni cəmiyyət dəyərlərini, onun inkişaf proqramlarını, konkret məqsədlərini əks etdirir. Konstitusiya islahatı özünün ideyasına görə cəmiyyətin inkişafına yönəldilməlidir. Onun ideal məqsədi nə siyasi mübarizənin, nə də siyasi maraqların ictimai inkişafın ümumi konstitusiya hədəfinə kölgə sala bilmədiyi bir model yaratmasından ibarətdir [14, s.125]. O, ictimai həyata xas olan tərəqqiyə ümumi meylin təzahürü kimi çıxış edir. Azadlıq, bərabərlik, ədalət, ictimai həyatın köhnəlmiş şərtlərindən azad olmaq arzusu əbədi olacaqdır.Konstitusiya tərəqqisini dövlətin daha ədalətli inkişaf etməsi imkanının azadlığı nöqteyi-nəzərindən qiymətləndirmək, dinamikanı sabitlik ilə birləşdirmək lazımdır [20, s.29].

Bununla yanaşı, V.V. Kireyevin haqlı olaraq qeyd etdiyi kimi, konstitusiya islahatı məqsədinin məhz hüquqi məqsəd kimi qısaca və dürüst ifadə olunması zərurəti cəmiyyətin obyektiv ehtiyaclarına, konstitusiya islahatının ilkin şərtlərinin nəticələrinə uyğun olmalı və hələ də konstitusiya inkişafının əldə edilməmiş idealını ifadə etməlidir. Konstitusiya-hüquq islahatının məqsədlərini müəyyən etmək üçün aşağıda göstərilənlər prinsipial əhəmiyyətə malik olmalıdır:

- birincisi, onların formal tərifi;
- ikincisi, konstitusiya-hüquq islahatının ehtimal olunan imkanlarının müəyyənləşdirilməsi, nəticələrinin proqnozlaşdırılması;
- üçüncüsü, məqsəd və konkret vəzifələrin qoyulmasında sistemlik prinsipinin təmin edilməsi;
- dördüncüsü, konstitusiya-hüquq islahatının konyunktur məqsədlərinin aradan qaldırılması [13, s.19].

Bu baxımdan, konstitusiya islahatı həm cəmiyyətin inkişaf etmə zərurəti ilə əlaqəli olan ümumi məqsədlərə, həm də dövlət mexanizminin, dövlət və cəmiyyət arasındakı qarşılıqlı münasibətlər sisteminin təkmilləşdirilməsinin konkret ehtiyacları və vəzifələri ilə əlaqəli olan xüsusi məqsədlərə malik olmalıdır.Konstitusiya islahatı təsisedici hakimiyyətin təzahürü kimi öz iştirakçılarının tərkibi ilə səciyyələnir. Onların hamısı konstitusiya hüququnun subyektləridir və eyni zamanda fərqli statuslara malikdirlər və müvafiq prosesdə öz rollarını yerinə yetirirlər. Konstitusiya islahatlarının dinamikasının məzmununu başa düşmək üçün onun dövrülük xarakterini araşdırmaq lazımdır. Belə ki, hər hansı bir ölkədə dövlətçilik inkişafının müəyyən bir dövründə və onun konstitusiya tarixində bir konstitusiya dövrünün başa çatdığını qeyd etmək olar.

Dövlətdə səbəbi vətəndaş cəmiyyətinin zəifliyi olan konstitusiya islahatlarının və əksislahatların növbələnməsi baş verdiyi anda həm hakim elitanın, həm də bütövlükdə cəmiyyətin daimi parçalanması müxtəlif siyasi qrupların və dövlət inkişafının müxtəlif modellərinin tərəfdarlarının maraqlarını nəzərə alan dövlət inkişaf kursunun tərtibinə kömək etmir.

Müstəqilliyin bəyan edildiyi andan keçmiş SSRİ dövlətlərində siyasi və iqtisadi böhranlar, islahatlar vaxtaşırı gah kəskinləşərək, gah da zəifləyərək daimi bir hala çevrilmişdir. Siyasi böhranın kəskinləşməsi konstitusiya islahatı problemini siyasi ziddiyyətlərin aradan qaldırılması üçün bir panaseya, çıxış yolu kimi daim aktuallaşdırır. Bu cür daimi böhran halları cəmiyyətin keçid dövrü və müvafiq olaraq dövlət təşkilatlanması, hüquq sistemi və konstitusiya quruluşu ilə şərtlənir. Sovet dövrünün dəyərlərindən liberal-demokratik dəyərlərə kəskin keçid öz təsirini göstərir. Bununla yanaşı, elmi ədəbiyyatda qeyd edildiyi kimi, keçid dövrləri heç də mütləq olaraq dövlətdə və cəmiyyətə ağır böhranlarla və ya konstitusiya böhranları ilə bağlı deyil. Keçid dövründəki islahatlarının cəmiyyət tərəfindən (üzvlərinin əksəriyyəti tərəfindən) ictimai faydalı və obyektiv zəruri və legitim, qanuni kimi qəbul edildiyi hallarda böhran hadisələri dövlət və cəmiyyət üçün uzunmüddətli və dağıdıcı olmur. Bu kimi hallarda keçid dövrü dövlətin və cəmiyyətin yeni ictimai-hüquqi institutların fəaliyyət göstərməsinin və aprobasiyasının, sınanmasının yeni şərtlərinə uyğunlaşması dövrüdür.

Qeyd etmək lazımdır ki, elmi hüquq ədəbiyyatında keçid vəziyyətlərinin problematikası dövlətin və hüququn tipologiyası və ənənəvi tipləri məsələsi ilə əlaqəli şəkildə tədqiq olunur. Hesab olunur ki, belə dövlət-hüquq sistemləri bir dövlət və hüquq tipindən digərinə “keçiddə”-dir: quldarlıqdan feodallığa, feodallıqdan kapitalizmə, kapitalizmdən sosializmə, və əksinə, sosializmdən (və ya yalançı sosializmdən) kapitalizmə [20, s.106]. Tarixi inkişafın müxtəlif mərhələlərində bu cürhallar və dövrlər onların tipologiyasının hansı əsasda (formasiya və ya sivilizasiya) araşdırılmasından asılı olmayaraq, bütün dövlət və hüquq sistemlərini "keçib və keçməkdə davam edir". Ümumiyyətlə, dövlətin və hüququn daim fəaliyyət göstərməsi və inkişaf etməsi nöqteyi-nəzərindən belə hesab etmək olar ki, onların bir keyfiyyət vəziyyətindən digərinə keçməsi davamlı olaraq baş verir. Lakin, bizim fikrimizcə, məhz bir tipdən digərinə keçid zamanı yaranan hansısa bir "tiplərarası" vəziyyəti dövlət və hüququn keçid tipikimi hesab etmək daha düzgündür. Klassik dövlət və hüquq tiplərindən fərqli olaraq, onların keçid tipləri-vəziyyətləri müəyyən xüsusiyyətlərlə səciyyələnir. Hüquq ədəbiyyatında qeyd olunur ki, dövlət və hüququn keçid tipləri, bir qayda olaraq, inqilablar, müharibələr, uğursuz radikal islahatlar kimi müxtəlif sosial sarsıntılar nəticəsində yaranır [20, s.110].

Fikrimizcə, bu siyahıya daha bir səbəbi əlavə etmək lazımdır – tərkibi mürəkkəb olan dövlətlərin dağılması yeni yaranmış dövlətlər üçün mütləq keçid dövrünə səbəb olacaqdır. SSRİ-nin dağılması ilə onun bütün keçmiş üzvlərində yalançı sosialist dövlətdən yeni sosial-demokratik, liberal tipli dövlət tipinə keçid başladı. Bu proses onların hamısında konstitusiya-hüquq islahatların başlamasını şərtləndirdi. Lakin bütün hallarda, keçid dövrü dövlət və hüququn sonrakı inkişafının bir neçə mümkün variantını özündə ehtiva etmiş, qeyri-müəyyənlik vəziyyətinə, modellərin axtarışına və gələcək dəyişiklik layihələrinin bir-birinə zidd olmasına səbəb olmuşdur.

Əgər konstitusiya islahatına dövlətin və cəmiyyətin inkişaf ehtiyacları ilə Əsas Qanunun parametrləri ilə müəyyən edilmiş imkanlar arasındakı ziddiyyətlərin aradan qaldırılmasının bir vasitəsi kimi baxılarsa, o zaman keçid dövrü dövlətin və cəmiyyətin gələcək inkişaf istiqamətlərinə və onların həyata keçirilməsinin konstitusiya-hüquq vasitələrinə və bu vasitələrin dövlət təcrübəsinə daxil edilməsinə dair konsensusun əldə olunması dövrüdür. Sosial planda, keçid dövrü

cəmiyyətdə konsensusun formalaşdırılması prosesləri, konstitusiya islahatının məzmunu və istiqamətlərinin müəyyənləşdirilməsi və konstitusiya yeniliklərinin legitimliyinin əldə edilməsi ilə bağlıdır. Legitimlik – konstitusiya islahatının zəruri əlamətidir. O, birbaşa konstitusiyanın özünün legitimliyi tələbindən irəli gəlir. Konstitusiya islahatının mahiyyət aspekti cəmiyyətin dövlət təşkilatlanmasının hüquqi əsaslarının dəyişdirilməsindən ibarətdir. Hüquqi əsası konstitusiya olan bu cür dəyişikliklər səlahiyyətli qurumların, subyektlərin məqsədyönlü fəaliyyəti nəticəsində baş verir və konstitusiya prosesinin parametrləri daxilində həyata keçirilir. Konstitusiya dəyişikliklərinin maddi və prosessual tərəfi hüququn aliliyi və qanunçuluq, sistemlilik, demokratizm və legitimlik tələbləri ilə xarakterizə olunur. Konstitusiya inkişafının məzmunundan, həcmindən və dinamikasından asılı olaraq elmi ədəbiyyatda konstitusiya islahatları ilə yanaşı konstitusiya yeniləşdirilməsi, konstitusiya modifikasiyası, konstitusiya inqilabı, konstitusiya təftişi, konstitusiya düzəlişi və konstitusiya yenidən baxılma kimi bir sıra digər konstitusiya transformasiyaları da mövcuddur.

M.F. Orzix islahatın aparılmasının həlledici əlamətini, konstitusiya modernləşməsindən fərqli olaraq, sonuncunun konstitusionalizm sisteminə təsirinin olmamasında görür [18, s.46]. Ümumiyyətlə, modernləşmə müasirliyin tələblərinə uyğun olaraq nəinsə dəyişməsi prosesidir, yenilənmə, daha mükəmməl, müasir şəraitə keçmə deməkdir. Buna görə də, bu sözün semantik mənasından modernləşmənin həcmi, yayılması barədə bir nəticə çıxarmaq mümkün deyil.

Beləliklə, əgər dövlətdə konstitusiya islahatı dövrün tələblərinə uyğun olaraq baş verirsə (və bu, bir qayda olaraq, belə də olur), o zaman belə bir konstitusiya transformasiyasını, hətta konstitusiya quruluşunda köklü dəyişikliklərin olduğu halda belə, konstitusiya modernləşməsi hesab etmək olar.

Digər tərəfdən, məlum olduğu kimi, SSRİ dağıldıqdan sonra ayrı-ayrı respublikalarda, məsələn, Latviyada konstitusiya islahatları "Sovet konstitusiyaları"-ın ləğv edilməsi və Sovetdən əvvəlki dövr konstitusiyasının bərpa edilməsi yolu ilə həyata keçirilirdi. Hal-hazırda Latviyada 1922-ci il Konstitusiyası qüvvədədir [4].

Belə hallarda konstitusiya islahatını çətin ki modernləşmə adlandırmaq olar. Lakin digər tərəfdən, bu cür  tək-tək rastlanan islahatlar daha çox qaydadan istisnadır. Yuxarıda göstərilənlər bəzi müəlliflərə "konstitusiya islahatı" və "konstitusiya modernləşməsi" anlayışlarını sinonim kimi qəbul etməyə əsas verir. Konstitusiya transformasiyasının varisliyinin təmin edilməsi nöqteyi-nəzərindən yeni konstitusiyanın qəbul edilməsi müəyyən problemlər yarada bilər. Axı xarici ölkələrin konstitusiyalarında, bir qayda olaraq, yeni konstitusiyanın qəbul edilməsinin hüquqi mexanizminəzərdə tutulmur, yeni konstitusiya qəbulunun subyekti müəyyən edilmir və onun qəbul olunması şərtləri və qaydası müəyyənləşdirilmir. Eyni zamanda belə bir sual meydana çıxır: planlaşdırılan konstitusiya islahatı, onun miqyasını və qəbul etmə qaydasının qeyri-müəyyənliyini nəzərə alaraq, konstitusiya inqilabına çevrilməyəcəkmi?

Elmi ədəbiyyatda "konstitusiya inqilabı"-na konstitusiya islahatının bir forması kimi baxılır [17, s.57]. İslahatla inqilab arasındakı fərq hadisələrin dinamikasından və nəticələrindən ibarətdir. Hesab olunur ki, sonuncular tez keçmə vəmüəyyən sistem üçün dağıdıcı dəyişmələr ilə səciyyələnir. Konstitusiya hüququ baxımından "konstitusiya inqilabı" termininin özü çox ziddiyyətli görünür.Elmi hüquq ədəbiyyatında bu termin yeni konstitusiya aktlarının qəbul edilməsi ilə müşayiət olunan cəmiyyətin ictimai-siyasi istiqamətlərinin dəyişməsi ilə əlaqəli konstitusiya islahatlarının səciyyələndirilməsi üçün istifadə olunur. A.N. Meduşevskinin qeyd etdiyi kimi, hüquqi mənada inqilab anlayışı altında ictimai-hüquq normaları dəyərinin köklü şəkildə yenidən

nəzərdən keçirilməsinin baş verdiyi dövlət daxilində siyasi hakimiyyət varisliyinin qırılması başa düşülür [16, s.55]. İslahat anlayışı altında isə hüquq sistemində bu varisliyi pozmayan dəyişikliklər başa düşülür. V.V. Lemakın fikrinə əsasən, "bir tərəfdən, təsisedici hakimiyyət koordinatları və mexanizmləri ilə yeni bir konstitusiyanın yaradılmasını, digər tərəfdən isə:

a) konstitusiyaya onun maddi mahiyyətini təşkil edən, lakin fundamental qaydalara təsir etməyən normaların qısa və dürüst ifadələrinin dəqiqləşdirilməsi ilə əlaqəli lokal dəyişikliklərin edilməsini;

b) əsas konstitusiya prinsiplərinin (xüsusən hüququn aliliyi, məhkəmələrin müstəqilliyi və s.) inkar edilməsinə de-fakto yönəldilmiş fəaliyyəti "islahatdan" fərqləndirmək lazımdır" [15, s.46].

Alimlər bu təriflə qismən razılaşır, çünki "təsisedici hakimiyyət koordinatları və mexanizmləri ilə yeni bir konstitusiyanın yaradılması", fikrimizcə, heç də ölkədə yeni bir dövlət və ya konstitusiya quruluşunun tətbiqi ilə əlaqələndirilməməli, konstitusiya böhranının, hakimiyyətin və konstitusiyanın legitimliyi böhranının aradan qaldırılması, konstitusiya inkişafı üzrə vətəndaş konsensusun əldə edilməsi ehtiyacı ilə müəyyən edilməlidir. Bu halda yeni bir konstitusiyanın yaradılması mahiyyət etibarilə konstitusiya islahatı olacaqdır. Bundan əlavə, "normaların qısa və dürüst ifadələrinin dəqiqləşdirilməsi ilə əlaqədar konstitusiyaya lokal dəyişikliklərin edilməsi" hər bir haldakonkret qiymətləndirilməlidir, çünki konstitusiyaya düzəlişlər şəklində olan normaların qısa və dürüst ifadələrinin dəqiqləşdirilməsi konstitusiyanın maddi təbiətinə təsir göstərməyə bilər, lakin ayrı-ayrı konstitusiya institutlarını dəyişdirə və konstitusiya prinsiplərinin inkişafının digər vektorlarını verə, müəyyən edə bilər. Ümumiyyətlə, elmi ədəbiyyatda qeyd olunduğu kimi, "modernləşmə" və ya "islahat" və ya hətta "konstitusiya inqilabı" konstitusiya inkişafı prosesini səciyyələndirən konstitusiya hadisəsinin mahiyyətindən daha çox onun müddəti haqqında mübahisədir, və ən əsası, bu prosesin nəticəsi – dövlət və cəmiyyətin sabit inkişafına kömək etməli olan müvafiq konstitusiya dəyişiklikləridir. Eyni zamanda, konstitusiya islahatı fenomeninin belə bir terminoloji müxtəlifliyi göstərilmiş problematikanın tədqiq edilməsi aktuallığının xeyrinə olan daha bir arqumentdir.

Göstərildiyi kimi, dünya təcrübəsi konstitusiya dəyişikliklərinin müxtəlifliyinə dəlalət edir. Onların bəziləri birbaşa islahatla eyniləşdirilir. Bununla əlaqədar olaraq, konstitusiya islahatlarının, məsələn, qismən və az-çox sistemli və tam konstitusiya islahatlarının dərinliyi və müəyyən səviyyələri haqqında obyektiv bir sual yaranır. Bununla yanaşı, belə növ islahatların eyni həcmə malik olmadığını, onların yanlız konstitusiya dəyişiklikləri haqqında aktlar ilə yox, həm də siyasi-hüquqi və sosial yeniliklərin genişliyi iləbir-birindən fərqlənməsini vurğulamaq vacibdir.

Beləliklə, tam konstitusiya islahatı anlayışı altında yeni konstitusiyanın qüvvəyə minməsini və eyni zamanda, əvvəlkinin qüvvədən düşməsini başa düşmək olar. Qismən islahatı isə əsas qanunun ayrı-ayrı müddəalarının dəyişdirilməsi, yəni onun mətninə düzəlişlərin edilməsi ilə eyniləşdirmək olar [8, s.12]. Belə bir bölgü islahatın xarici təzahürlərini nəzərə alır, lakin dəyişikliklərin mahiyyətini əks etdirmir, buna görə də son dəyərləndirmələr üçün kifayət edə bilməz. Konstitusiya hüququ ədəbiyyatında konstitusiya islahatına ölkənin ən ali hüquqi qanununun yazılı normalarının həqiqi, "canlı" konstitusiyaya, ictimai inkişafın və hüquq düşüncəsinin ehtiyacları ilə diktə olunan sözün maddi mənasında konstitusiyaya uyğunlaşdırılmasına yönəlmiş dövlət hakimiyyətinin siyasi-hüquqi qərarlarının və hərəkətlərinin ardıcıllığı kimi tərifin verilməsi təklif olumuşdur [20, s.14]. Digər müəlliflər konstitusiya islahatını konstitusiyaya əlavə və ya konstitusiya əvəzlənməsi, habelə cəmiyyətdə və idarəetmədə daha dərin dəyişikliklər kimi araşdıraraq bu terminin dəqiq bir tərifinin olmamasını qeyd edirlər. Konstitusiya dəyişikliklərinin

mürəkkəbliyi və müxtəlifliyi, konstitusiya islahatının tərifində sabit birliyin olmaması bu anlayışla yanaşı "konseptual dəyişikliklər", "radikal islahat", "radikal təftiş", "köklü surətdə yenidən baxılma", "mövcud konstitusiya modelinin dəyişdirilməsi", "konstitusiyaya ümumişəkildə yenidən baxılma", "inqilabi dəyişikliklər", "konstitusiyanın təshih edilməsi","konstitusiyamodifikasiyası", "konstitusiya yenidən qurulması", "konstitusiya modernləşməsi" [10, s.5]. və s. kimi digər terminlərin də istifadə olunmasını şərtləndirmişdir.

Yekun olaraq qeyd etməliyik ki, konstitusiya islahatını konstitusiya prosesinin əsas kəmiyyət və keyfiyyət parametrləri, ölçüləri hüdudlarında konstitusiya quruluşunun prinsipial, dəyərlilik əsasları əsasında həyata keçirilən, cəmiyyətin dövlət təşkilatlanmasının təkmilləşdirilməsinə yönələn və müasir konstitusionalizmin universal prinsipləri və standartlarına uyğun olaraq onun proqressiv inkişaf məqsədinə tabe olan Əsas Qanun dəyişiklikləri ilə bağlı cəmiyyətin həyat fəaliyyəti ehtiyacları ilə şərtləşdirilmiş siyasi-hüquqi hadisə kimi başa düşmək lazımdır.

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2018, 43 s.
2. Amerika Birləşmiş Ştatlarının Konstitusiyası (1787). Bakı: Qanun 2018, 24 s.
3. Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı Universiteti, 2011, 698 s.
4. Latviya Respublikasının Konstitusiyası: [Elekrton mənbə]. URL: http://latvia.regnews.org/doc/lq/xf.htm. (müraciət tarixi: 30.03.2020).
5. Nağıyev F.T. Müstəqillik illərində Azərbaycan Respublikasında konstitusiya islahatları // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı № 4(56), Bakı 2016, s. 111-116.
6. Nağıyev F.T. İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində konstitusiya islahatlarının rolu //İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatının aktual problemləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, Bakı: Mütərcim, 2016, s. 136-141.
7. Türkmənistan Respublikasının Konstitusiyası. [Elekrton mənbə]. URL: http://infoabad. com/zakonodatelstvo-turkmenistana/konstitucija-turkmenistana-novaja-redakcija.html (müraciət tarixi: 30.03.2020).
8. Алебастров И.А. Конституционное право зарубежных стран: Учебное пособие. М.: 2003, 192 с.
9. Агафонова Н.В. Конституция как объект реформирования // Университетские научные записки. - 2016. - № 3 (59), с. 16-19.
10. Бутусова Н.В. О модернизации российской Конституции (цели, задачи, пути осуществления) // Конституционное и муниципальное право. 2013. № 1, с. 5-11.
11. Бутько Л.В. Конституционная реформа: теоретико-правовой анализ: Дис... докт. юрид. наук. СПб., 1998, 426 с.
12. Волошин Ю.А. Конституционная реформа и модернизация в современном государстве в условиях европейской интеграции: проблемы теории и практики: Монография. Одесса: Феникс, 2013, 287 с.
13. Киреев В.В. Теоретические проблемы реформирования Конституции Российской Федерации: Автореф. дис... докт. юрид. наук. Челябинск, 2010, 43 с.
14. Колодий А.М. Принципы права Украины. М.: Интер, 2018, 336 с.

15. Малышев Б.В. Правовая реформа (телеологическое измерение): монография. М .: ИД Дакор, 2012, 364 с.

16. Медушевский А.Н.Сравнительное конституционное право и политические институты: курс лекций. М.: ГУ ВШЭ, 2002, 734 с.

17. Мельник М. Конституция будущего или констатация прошлого//Зеркало недели. Украина., 2012, № 23, с. 6-11.

18. Орзих М.Ф. Современный конституционализм в Украине. Введение в украинское конституционное право. К.: Алерта, 2006, 290 с.

19. Проблемы теории государства и права : учебное пособие. – М.: Проспект, 2009, 358 с.

20. Румянцев О.Г. Основы конституционного строя России (понятие, содержание, вопросы становления). М.: Юрист, 2015, 288 с.

**Гадималиев А.Р.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.64-77**
**УДК: 34. 342. 324.4; 342.5**

## Основные и ведущие онтологические особенности конституционной реформы

**Аннотация**: Рассматриваются основные и ведущие онтологические особенности конституционной реформы в современную эпоху. Основной целью является научно-методическая оценка современных конституционных реформ, изучение теорий, связанных с конституционной реформой и обобщение результатов научных исследований, связанных с их применением на практике. Также ведется изучение изменений и дополнений в другие нормативные правовые акты, в том числе в конституционное право. В результате исследования был изучен как местный, так и зарубежный опыт в данной области, и было выражено отношение к существующим проблемам в этой области. Была проанализирована существующая юридическая литература, нормативно-правовая база, ряд рекомендаций и предложений.

**Ключевые слова:** конституционное право; конституционные реформы; конституционная динамика.

### Библиография

1. Конституция Азербайджанской Республики. - Баку, Ганун, - 2018. - 43 с. (на азерб. яз.)
2. Конституция Соединенных Штатов Америки (1787). - Баку, Ганун, 2018. - 24 с. (на азерб. яз.).
3. Аскеров З.А. Конституционное право. - Баку, Бакинский ун-т, 2011.- 698 с. (на азерб. яз.).
4. Конституция Латвийской Республики. [Электронный ресурс]. Режим доступа: http://latvia.regnews.org/doc/lq/xf.htm. (дата обращения: 30.03.2020).
5. Нагиев Ф.Т. Конституционные реформы в Азербайджанской Республике в годы независимости // Журнал Довлет идречилии: незерие ве теджрубе. - Баку. - №4 (56). – 2016. – С. 111-116 (на азерб. яз.).
6. Нагиев Ф.Т. Роль конституционных реформ в обеспечении прав и свобод человека и гражданина / Матер. научн-практ. конфер. - Баку, Мутарджим. - 2016. - С. 136-141. (на азерб. яз.).
7. Конституция Туркменской Республики [Электронный ресурс]. Режим доступа: http://infoabad.com/zakonodatelstvo-turkmenistana/konstitucija-turkmenistana-novaja-redakcija.html (дата обращения: 30.03.2020) (на азерб. яз.).
8. Алебастров И.А. Конституционное право зарубежных стран: Учебное пособие. - М.: 2003. - 192 с.

♦ **Гадималиев Араз Рагуф оглы** – доктор философии права, доцент кафедры права Академии государственного управления при Президенте Азербайджанской Республики. E-mail: arazqadimaliyev@mail.ru

9. Агафонова Н.В. Конституция как объект реформирования // Университетские научные записки. - 2016. - № 3 (59). - С. 16-19.

10. Бутусова Н.В. О модернизации российской Конституции (цели, задачи, пути осуществления) // Конституционное и муниципальное право. - 2013. - № 1. - С. 5-11.

11. Бутько Л.В. Конституционная реформа: теоретико-правовой анализ: Дис... докт. юрид. наук. - СПб., 1998. - 426 с.

12. Волошин Ю.А. Конституционная реформа и модернизация в современном государстве в условиях европейской интеграции: проблемы теории и практики: Монография. - Одесса: Феникс, 2013. - 287 с.

13. Киреев В.В. Теоретические проблемы реформирования Конституции Российской Федерации: Автореф. дис... докт. юрид. наук. - Челябинск, 2010. - 43 с.

14. Колодий А.М. Принципы права Украины. - М.: Интер, 2018. - 336 с.

15. Малышев Б.В. Правовая реформа (телеологическое измерение): монография. - М.: ИД Дакор, 2012, - 364 с.

16. Медушевский А.Н.Сравнительное конституционное право и политические институты: курс лекций. - М.: ГУ ВШЭ, 2002. - 734 с.

17. Мельник М. Конституция будущего или констатация прошлого//Зеркало недели. Украина. – 2012. - № 23. - С. 6-11.

18. Орзих М.Ф. Современный конституционализм в Украине. Введение в украинское конституционное право. - К.: Алерта, 2006. - 290 с.

19. Проблемы теории государства и права: Учебное пособие. - М.: Проспект, 2009. - 358 с.

20. Румянцев О.Г. Основы конституционного строя России (понятие, содержание, вопросы становления). - М.: Юрист, 2015. - 288 с.